# SAMUR ÇAYI HÖVZƏSİNİN MEŞƏLƏRİNİN DƏYİŞMƏSİ

**Vahid Fərzəliyev[1*], Yusif Abiyev[2]**

*[1]ETSN yanında Meşələrin İnkişafı Xidməti, Bakı*
*[2]Bakı Dövlət Universiteti*
*[*]v.farzaliyev@yahoo.co.uk*

Qusar rayonunda, Samur çayının hövzəsində yerləşən Həzrə meşəbəyliyinin ərazisində məsafədən zondlama üsullarından istifadə etməklə meşələrin dəyişməsi xüsusiyyətləri araşdırılmışdır. Tədqiqatlar zamanı 1987-ci ildən 2023-cü ilə qədər bitki örtüyünün sağlamlığını və yaşıllığını təhlil etmək üçün Landsat peyk görüntülərindən və Chlorophyll Index-Green (CIgreen) vegetasiya indeksindən istifadə olunmuşdur.

$$\mathrm{CIgreen} = \left(\frac{\mathrm{NIR}}{\mathrm{GREEN}}\right) - 1$$

*"CIgreen" – yaşıl xlorofil indeksi, NIR- infraqırmızı dalğa, GREEN – yaşıl dalğa*

Cədvəl 1-dən göründüyü kimi, su örtüyü və sıxlığı yüksək olan meşələr tamamilə sıradan çıxmışdır. Eyni zamanda 160 hektardan çox açıq torpaq sahələri meşə və kolluq bitkiliyi ilə əvəz olunmuşdur. Təxmini 50 hektardan çox ərazidə bitki örtüyü artmışdır. Meşələrin sıxlığı və sağlamlığı isə 4000 min hektara yaxın azalmış, əvəzində isə kolluq, ağaclıq, orta və aşağı səviyyəli meşələr 4300 ha artmışdır. Ümumən nəticələrə nəzər saldıqda aydın olur ki, ərazidə meşə ilə örtülü sahədə artım olsa da, meşələrin sıxlığı və sağlamlığı ciddi səviyyədə aşağı enmişdir. İlkin olaraq bu prosesin antropogen təsirlərdən başqa, su ehtiyatının azalması və iqlim dəyişmələrindən qaynaqlandığı əsas səbəb kimi qeyd oluna bilər.

Əldə olunmuş nəticələr iqlim dəyişikliyi fonunda meşələrin effektli idarə olunmasında, həmçinin meşə sahələrinin genişləndirilməsi və mühafizəsi üzrə görüləcək işlərin düzgün planlaşdırılmasında uğurla istifadə oluna bilər. Yaranmış vəziyyətdə xüsusi əhəmiyyət daşıyan çay hövzəsi meşələrinin bərpası programının həyata keçirilməsi vacibdir.

**Cədvəl 1.**

Həzrə meşəbəyliyinin 1987-2023-ci illərin iyul ayı üzrə müqayisəsi

| **Dəyər** | **Sahə (ha) iyul 1987** | **Sahə (ha)iyul 2023** | **Dəyişmə** |
|---|---|---|---|
| -1 – Su örtüyü | 4,68 | 0 | 4,68 ha azalıb |
| 0 – Açıq torpaq örtüyü | 514,17 | 350,73 | 163,44 ha azalıb |
| 1 – Kolluq, ağaclıq, orta səviyyəli meşələr | 3892,23 | 8193,87 | 4301,64 ha artıb |
| 2 – Sıx və sağlam meşələr | 4903,36 | 959,67 | 3943,69 ha azalıb |
| 3 – Yüksək sıxlıqlı və sağlam meşələr | 192,69 | 0 | 192,69 ha azalıb |

